UOT 82-32

# İSA HÜSEYNOVUN (MUĞANNA) HEKAYƏLƏRİNDƏ MƏNƏVİ-ƏXLAQİ DƏYƏRLƏR

**O.S.ABBASOVA**
***Bakı Dövlət Universiteti***
***o.abbasova@hotmail.com***

*2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrində mənəvi-əxlaqi problemlər maraq doğurmaqdadır. Yazıçı İ. Hüseynovun (Muğanna) qələmə aldığı "Şinel", "Portsiqar", "Getdi" kimi hekayələrində mənəvi-əxlaqi dəyərlər əsas mövzu obyekti kimi seçilmişdir. Bu hekayələr mühüm tərbiyə vasitəsi kimi də diqqəti cəlb edir.*

**Açar sözlər:** janr, hekayə, üslub, mövzu, lakonik

Məlum olduğu kimi, hekayə bədii nəsrin digər janrları ilə müqayisədə özünəməxsus keyfiyyətlərə malikdir. Həyat hadisələrinə sərrast, çevik müdaxilə, yazı və ifadə tərzinin lakonikliyi, həcm yığcamlığı bu janrın keyfiyyət göstəricilərini şərtləndirməkdədir. Hekayə janrı yazıçıya qaldırmış olduğu problemi daha çevik, zamanında oxucuya təqdim etməyə imkan verdiyindən elə bir qələm sahibi tapmaq mümkün deyildir ki, yaradıcılığının hansısa bir dönəmində bu janra müraciət etməmiş olsun. Məhz bu xüsusiyyətlər hekayə janrının aktuallığını qoruyub saxlamaqda ona intensiv şəkildə müraciət olunmasını şərtləndirməkdədir.

Bədii nəsrin digər janrları ilə müqayisədə hekayənin özünəməxsus, spesifik xüsusiyyətlərə malik olması filologiya elmləri doktoru Cahangir Məmmədovun tədqiqatlarında da təsdiqini tapmaqdadır: «Hekayənin müəyyən dövrdə iri janrları qabağa buraxması, başqa bir dövrdə özünün irəli çıxması üslub axtarışları ilə daha çox bağlıdır. Hekayə bu inkişaf yolunun yeni mərhələsindədir. Bu inkişaf, bu axtarış təkcə hekayənin özünün təkamülünə deyil, bütövlükdə ədəbi prosesə təsir göstərir. Çünki hekayə başqa janrlardan daha dinamik, daha çevikdir və bu çeviklikdəki tapıntılar nəsrin bütün janrlarının təkamülündə öz rolunu göstərir» (4, 108).

Qeyd edək ki, 2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələri kəmiyyət etibarı ilə seçilməklə yanaşı, mövzu, problem, janr tipləri baxımından xeyli dərəcədə diqqəti çəkməkdədirlər. Bu dövrdə yazıçıların qələmə aldığı bədii örnəkləri mövzu və problem baxımından aşağıdakı kimi

təsnif etmək olar:

a) ictimai-siyasi mövzulu hekayələr;
b) müharibə mövzusunda yazılmış hekayələr;
c) məhəbbət mövzusunda yazılan hekayələr;
ç) mənəvi-əxlaqi problemlərə həsr olunmuş hekayələr;
d) sənədli hekayələr.

2000-2008-ci illərdə yaranan Azərbaycan hekayələrində mənəvi-əxlaqi problemlərə həsr olunmuş bədii örnəklər maraq doğurmaqdadır. Bu dövrdə elə bir yazıçıya təsadüf edilmir ki, mənəvi-əxlaqi mövzuda bədii örnəklər, o cümlədən hekayələr yazmamış olsun. Mənəvi-əxlaqi mövzularda qələmə alınan hekayələr bədii sənətkarlıq baxımından mövcud bədii örnəklərdən xeyli dərəcədə seçilir. Bu isə mövzu və ideyanın son dərəcə yayğın və populyar olmasından qaynaqlanır. Onu da qeyd etmək lazımdır ki, mənəvi-əxlaqi problemə həsr olunmuş hekayələrin konkret mövzu sərhədlərinin müəyyən-ləşdirilməsi mümkün deyildir. Bəhs olunan problemin ən incə çalarlarına diqqət yetirilməsi də nəzərdən qaçırılmamalıdır.

İsa Hüseynovun (Muğanna) hekayələri mənəvi-əxlaqi mövzuda qələmə alınmış sanballı bədii örnəklər kimi diqqəti çəkir. Qeyd edək ki, yazıçının hekayələrində mənəvi-əxlaqi dəyərlər uğrunda mübarizə bütün kəskinliyi ilə ifadə olunmuşdur. Ümumiyyətlə, İsa Hüseynovun (Muğanna) roman və povestlərində olduğu kimi hekayələrində də mənəvi-əxlaqi problemlərin özünəməxsus şəkildə bədii təzahürü diqqəti çəkməkdədir. Bu da yazıçının əsərlərinin (o cümlədən hekayələrinin) bədii sənətkarlıq baxımından orijinallığını təmin etməklə yanaşı, həmçinin oxunaqlığını şərtləndirməkdədir. İsa Hüseynov (Muğanna) hekayələrində tipik hadisələri canlandırmağa çalışır. O, ötəri, keçici hadisə və əhvalatları bədii nəsrə gətirməyi sevmir və bu amil onun hekayə yaradıcılığının ümumiləşdirmə vüsətini şərtləndirir.

İsa Hüseynovun (Muğanna) «Şinel» hekayəsinin əsas mövzu obyektini təşkil edən mənəvi-əxlaqi problemlər əsərdə orijinal bədii təcəssümünü tapmışdır. Özünəməxsus fərdi yaradıcılıq üslubuna, bənzərsiz yazı manerasına malik olan müəllifin bəhs olunan hekayəsində əsas hadisələr kənd məktəbində işləyən Əzizə müəllimənin taleyi fonunda cərəyan edir. Lakin Əzizə müəllimə ilə yanaşı hekayənin adı bilinməyən bir qəhrəmanı var ki, bu da müharibədən yaralı vəziyyətdə dönən əsgərdir. Yazıçı yaralı əsgərin fədakarlığı timsalında hekayənin baş qəhrəmanının taleyinə aydınlıq gətirə bilmişdir.

«Şinel» hekayəsinin süjet xəttində dayanan əsas hadisə Əzizə müəllimənin məktəb müəllimlərinin maaşını almaq üçün rayon mərkəzinə getməsi, qayıdarkən minik tapa bilməməsi və vağzalda yaralı bir əsgərlə qarşılaşmasıdır. Əsgərin qışın soyuğuna və özünün yaralı olmasına baxmayaraq şineli çıxarıb Əzizə müəlliməyə verməsi qadında dərin hisslər oyadır. O, kəndə dönərək səhərisi gün əsgərin şinelini geri qaytaran zaman onun vağzalda öldüyünü görərək dərin sarsıntı keçirir. Yazıçı Əzizə müəllimənin əsgərin fədakarlığı qarşısında sarsılmasını real, inandırıcı cizgilərlə əks etdirmişdir.

«Qar, yağış kəsmişdi. Yer donmuşdu, gölməçələr buz bağlamışdı. Daha palçığa-filana batmadan yüyürdüm, yüyürüb yeridim. O vaxt yetişdim ki, gözləmə otağında beş-altı adam hərəkətsiz, sükut içində dayanıb, gah mənə, gah da skamya tərəfə baxırdı. Onu arxası üstə skamyaya uzatmışdılar. Sinəsində, qolunda, çənəsində ağ tənzif əvəzində qara qan donmuşdu.

Şinel qoltuğumdan düşdü. Dizlərim büküldü. Yaş gözəlrimi tutsa da, başının üstündə tənzifin ilgəkli düyününü gördüm. İlgəyi çəkdim, tənzifi qurumuş yaralardan qoparda-qoparda üzünü açdım. Nə isə dumanlı hisslə göz qapaqlarını inadla geri sığayıb gözlərini açdım. «Ey Tanrım! Ey Tanrım, - deyirdim. İllərlə gözlədiyimi niyə verdin, niyə aldın, ey Tanrım!»- deyirdim.

Sanitarnı poyezddən üç-dörd adam düşüb gəldi. Xərəyə qoydular, şinelini üzünə çəkib apardılar… «Heç olmasa, adını deyəydin mənə, ey Vətən oğlu! Adın olsun Vətən oğlu, ey səcdəgahım!..» – Belə yaz, ey Əzizənin əziz şagirdi. Çılpaq dünyamıza şinel geyindir» (2, 15).

Göründüyü kimi, yazıçı obrazın hiss və həyəcanlarını, daxili əzab və iztirablarını olduqca təbii şəkildə təsvir etmişdir. Bu da əsərin oxunaqlılığını təmin etmiş, onun təsir və təlqin qüvvəsini artırmışdır. «Ədəbi əsərlərin dəyəri heç bir zaman onun yalnız mövzusu, təsvir obyekti ilə, yaxud surətlərin peşəsi, mənəvi-əxlaqi səviyyəsi, təhsili, cəmiyyətdə tutduğu mövqe ilə müəyyənləşmir. Əsl məsələ seçilən mövzunun, təsvir obyektinin hansı bədii qayəyə xidmət eləməsində, əsərin ideya-estetik pafosunda, onun oxucuya aşıladığı fikir və hissin nə dərəcədə müasir, faydalı əhəmiyyətli, nə dərəcədə səmimi, inandırıcı, təsirli olmasındadır. Əsərin pafosunu, ideya-estetik dəyərini isə yazıçı mövqeyi, yazıçının həyata baxışının, bədii konsepsiyasının mahiyyəti təyin edir. Müəllifin nə dərəcədə mütərəqqi, insani, nəcib məqsədlər izlədiyi, məqsədinə nə dərəcədə çatdığı burada əsas meyardır» (1, s. 190).

Məhz bu prizmadan yanaşdıqda İsa Hüseynovun bəhs olunan hekayəsi müəllifin vətəndaşlıq mövqeyinin aktivliyi ilə maraq doğurur və əsər mühüm tərbiyə vasitəsi kimi diqqəti cəlb edir.

Hekayədə «şinel» yalnız bir geyim forması kimi deyil, itməkdə olan mənəvi dəyərlərin simvolu kimi şərtlənməkdədir. Ölüm ayağında olan yaralı əsgərin həyatının ən çətin məqamında özünü deyil, özgələrini düşünməsi olduqca ciddi əxlaqi dəyər daşımaqdadır. Maraqlıdır ki, İsa Hüseynov hekayənin ideya-estetik mahiyyətini publisistik məcrada açmamış, onu yüksək bədii sənətkarlıqla ifadə etmişdir.

«Şinel» hekayəsində bədii mətn oxunaqlı, cəlbedici süjet xətti ilə oxucunu arxasınca çəkib apara bilir. Oxucunun süjetin əsasında dayanan əhvalata bağlılığı bütün əsər boyu davam edir. Bədii sənətkarlıq üçün mühüm amillərdən olan bu cəhət qaldırılan problemin oxucuya çatdırılmasında əhəmiyyətli rol oynamaqdadır.

İsa Hüseynovun «Portsiqar» və «Getdi» adlı hekayələrində də mənəvi-əxlaqi dəyərlər əsas mövzu obyekti kimi seçilmişdir. Hər iki hekayənin bədii sənətkarlığını şərtləndirən məqamlar burada istər yazıçı təhkiyəsində, istərsə

də obrazların mükaliməlırində gerçəkləşmişdir.

«Portsiqar» hekayəsində siqaret çəkməyi tərgitmiş bir qocanın keçmiş vərdişindən əl çəkə bilmədiyi üçün cibində daim portsiqar gəzdirməsi təsvir olunur. Hekayə əsərin qəhrəmanı olan qocanın taleyini anladan təhkiyə ilə başlayır:

«Ağappaq aliminiumdan, naxışsız-filansız, adi, yüngül, gözəl bir portsiqardı… Yaş altmışa çathaçatdı, yerişim ağırlaşmışdı, nəfəsim çətinləşmişdi və necə deyərlər, canımı dişimə tutub papirosu tərgitmişdim, amma o adi, gözəl portsiqarı elə cibimdəcə saxlayırdım. Papirosu tərgidənlərdən kimi təsbeh çəkir, kimisi saqqız çeynəyir, kimisi də «simişka»dan, tumdan-zaddan doldurur cibinə, çənəsi işləsin, başı qarışsın, papirosu yaddan çıxartsın. Mən isə yazda, yayda pencəyimin cibində, payızda plaşımın, qışda paltomun cibində gəzdirirdim o portsiqarı. Sağ əlim portsiqarımın gümüş kimi hamar, sərin üzünə elə alışmışdı ki, barmaqlarımın ucları ilə o hamarlığı, o sərinliyi sığallayanda elə bilirdim ruhumu sığallayıram. Bəzən hətta ayaq üstə mürgüləyirdim» (2, 22).

«Getdi» adlı hekayəsində isə İsa Hüseynov Azərbaycan xalqına məxsus olan qonaqpərvərliyin zaman-zaman aradan çıxması ilə bağlı yaranan narahatlıq ifadə olunmuşdur. Hekayənin qəhrəmanı olan Əmioğlu kişinin arvadı ilə mükaliməsi fonunda cərəyan edən hadisələr öznəməxsus uslubda qələmə alınmışdır. Maraqlıdır ki, Əmioğlu kişi Bakıdan qonaq gələn qaynını qarşılaya bilməməsinin səbəbini arvadında, arvadı isə onda görür.

Hadisələrin gedişindən məlum olur ki, Bakıdan qaynının gəldiyini eşidən Əmioğlu kişi evdən çıxıb getmək istəyir ki, qonaq üçün hazırlıq görülməsin. Evdə isə qənd-çaydan tutmuş bütün ərzaq məhsullarına qədər hər şeyi qıfıl altında saxladığından arvadı qonağın qarşısına bir stəkan çay belə hazırlayıb qoya bilmir.

Hekayənin sonunda qonağın çıxıb getməsi və bundan narahat olan ev sahiblərinin onu qaytarmaq üçün dalınca düşmələri təsvir olunur.

İsa Hüseynov bədii sözə dərindən bələd olan, ondan yerli-yerində istifadə etməyi bacaran sənətkarlardandır. Yazıçı əsərlərindən heç birini həcm xatirinə böyütməmiş, yersiz epizod və əhvalatlarla yükləməmişdir. Müəllif az sözlə böyük məna ifadə etməyə üstülük verdiyi, yığcam, lakonik yazı tərzinə söykəndiyi üçün əsərləri sözün imkanlarından sərrast və məharətlə bəhrələnmənin bənzərsiz örnəkləridir. İsa Hüseynovun sözün imkanlarından bəhrələnməsindəki məharətinin daha çox obraz yaradılışında üzə çıxması da onun dəst-xəttinin və yazı tərzinin özünəməxsus keyfiyyət göstəricilərindən biridir.

«İsa Muğannanın hər hansı kiçik bir hekayəsini belə oxuyarkən, onun qəlbindən, varlığından süzülüb axan bu əsərlər sanki ağrını damla-damla oxucunun da varlığına süzür, hopdurur» (3, 154). Bu ordan qaynaqlanır ki, İsa Hüseynov hekayə janrına təsadüfi olaraq müraciət etməmişdir. O bir çox hallarda qaldırılan problemin oxucuya çatdırılmasının çevikliyini, səmərəliliyi-

ni təmin etmək üçün hekayələrə üz tutmuş, janrın imkanlarından istifadə etməyi, yetərincə bəhrələnməyi əsas prinsip kimi götürmüşdür. Bu mənada yazıçının hekayə janrına müraciət etməsinin əsas səbəblərindən biri məhz onun istedadının özünəməxsusluğu ilə səciyyələndirilməlidir.

Qeyd edək ki, İsa Hüseynovun roman və povestlərində olduğu kimi, hekayələrinin də əsas qəhrəmanları adi, gündəlik məişət qayğıları ilə yaşayan insanlardır. Ancaq müəllif zahirən adi, sakit həyat sürən, gündəlik məişət qayğıları ilə yaşayan bu insanların zəngin daxili aləmini, fərdi keyfiyyətlərini, özünəməxsus cəhətlərini mənəvi-əxlaqi dəyərlər müstəvisində açıb göstərə bilmiş və bununla da maraqlı, təkrarsız insan surətləri yaratmağa nail olmuşdur.

## ƏDƏBİYYAT


1. Ədəbiyyatşünaslıq. Ensiklopedik lügət / Tərtibçi Əziz Mirəhmədov. Bakı: «Azərbaycan Ensiklopediyası» Nəşriyyat-Poliqrafiya Birliyi, 240s.
2. Hüseynov İsa (Muğanna). «Dan ulduzu və mən», «Şinel», «Unus», «Rzaqulu», «Yekədiz Məcid», «Portsiqar», «Getdi», «Şapalaq», «Küllük» (hekayələr) // «Azərbaycan» jurnalı, 2005, № 9, s. 5–28.
3. Maqsud Səkinə. İsa Muğanna: bədii sözün böyük yaradıcısı // «Azərbaycan» jurnalı, 2009, № 9, s.152-158.
4. Məmmədov Cahangir. Nəsrimiz, düşüncələr, axtarışlar, Bakı: Yazıçı, 128 s.


## НРАВСТВЕННО – МОРАЛЬНЫЕ ЦЕННОСТИ В РАССКАЗАХ ИСЫ ГУСЕЙНОВА (МУГАННА)


**О.С.АББАСОВА**



**РЕЗЮМЕ**

Азербайджанские рассказы, созданные Исы Гусейновым (Муганна) в 2000-2008 гг., продолжают вызывать моральный и нравственный интерес.

В рассказах «Шинель», «Портсигар», «Ушел» в качестве темы избраны нравственно – моральные ценности.

Эти рассказы привлекают внимание как и воспитательное средство.



**Ключевые слова:** жанр, рассказ, стиль, тема, лаконик


## MORAL VALUES IN I.HUSEYNOV'S (MUGANNA) STORIES


**O.S.ABBASOVA**



**SUMMARY**

The Azerbaijan stories of 2000-2008 raise great interest. Isa Huseynov (Muganna) focuses on moral values in his stories such as “Shinel” (Greatcoat), “Partsigar” (Cigaretlecase), “Getdi” (Gone).

The stories are noteworthy from the point of upbringing.



**Key words:** genre, story, style, subject, laconic